# "Azərbaycan Respublikasının Su Məcəlləsində və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 205-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Su Məcəlləsində və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 205-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 sentyabr tarixli 492 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 170 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

2. "Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 169 (Cild I); 2024, № 12 (II kitab), maddə 1359) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddə "və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirirlər" sözləri "həyata keçirir" sözləri ilə əvəz edilsin;

2.2. 2.4-cü bənddən "həmin maddədə nəzərdə tutulmuş "Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;" sözləri çıxarılsın;

2.3. 2.5-ci bənddən "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti," sözləri çıxarılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Su Məcəlləsində və "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 205-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 5 iyun 2025-ci il*

Azərbaycan.- 2025.- 6 iyun (№ 117).- S.2.